# ORTA ÜMUMTƏHSİL MƏKTƏB KURSUNDA KİMYADAN VII – VIII SİNİFLƏRDƏ EKSPERİMENTAL MƏSƏLƏLƏRİN HƏLLİ ÜSULU

**M.H.Şahbazov, N.Ə.Məmmədzadə**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Orta məktəbdə şagirdlərin kimya dərslərində bilik,bacarıq və vərdişlərinin möhkəmləndirilməsi, formalaşdırılması və inkişaf etdirilməsində kimya məsələlərinin həlli çox vacibdir. Çünki kimya ilə əlaqədar olan istehsalat sahələri kifayət qədərdir və kimya sənayesi ilə yanaşı kənd təsərrüfatı məhsulları, metal, gübrə, boyaq və s. istehsalı bütünlüklə kimyəvi proseslərlə bağlıdır. Bunlara aid məsələ həllini yaxşı mənimsəyən şagird praktiki həyata atılanda çətinlik çəkmə,gələcəkdə işlədiyi sahənin proseslərini tez mənimsəyər və istehsalatı səmərələşdirmək üsulunu tapa bilər. Kimyadan eksperimental məsələlərin həlli şagirdlərin biliklərinin genişləndirilməsi və möhkəmləndirilməsinə, kimyəvi təfəkkürün inkişafına yönəldilir. Şagirdlərdə yalnız müəyyən nəzəri biliklərin formalaşması deyil, həmçinin onların kimyəvi eksperiment aparmaq üçün müvafiq bacarıqlara yiyələnmələri nəzərdə tutulur. Eksperimental məsələlərə şagirdlərdən həlli yalnız fikri əməliyyatlar deyil, eyni zamanda kimyanın qanun, nəzəriyyə və metodları əsasında praktiki fəaliyyət tələb edən problemli vəziyyət modeli kimi baxılır. Eksperimental məsələ həllinin didaktik funksiyası müstəqil işlərin, kompleks bacarıqların formalaşdırılması, diqqət və müşahidəçiliyin təkmilləşdirilməsi ilə nəticələnir. Eksperimental məsələ həllinə hazırlıq zamanı müəllim tapşırığın dəqiq və qısa olmasını, həllinin isə təhlükəsiz və tam olmasını nəzərə almalıdır. Eyni zamanda müəllim dərsdə məsələ həll etdirməklə şagirdlərin fəal iştirakını, dərketmə qabiliyyətlərini yüksəldir və onlarda tədqiqatçılıq həvəsi oyadır.

Orta məktəbin VII və VIII siniflərində kimya proqramı üzrə aşağıdakı mövzular: kimyəvi formul və kimyəvi tənliklər üzrə hesablamalar, tərkibin sabitliyi qanunu, maddə kütləsinin saxlanması qanunu, oksigen və hidrogenin xassələri, məhlulların qatılıqları, oksidlər, əsaslar, turşular və duzların xassələri, dövri qanun və dövri sistem, atomun quruluşunun mürəkkəbliyi, kimyəvi rabitələr: ion, kovalent, hidrogen və metal, suyun xassələri və oksidləşmə-reduksiya reaksiyalarına aid eksperimental məsələlərin həlli nəzərdə tutulur.

Eksperimental məsələləri aşağıdakı kimi qruplaşdırırlar.

1. Maddələrin alınması və xassələri. Kimya eksperimentinin əsas məsələlərindən biri maddələri təmiz halda almaqdır. Maddənin alınma üsullarından asılı olaraq bu tip eksperimental məsələlər variantlara bölünür: a) maddələrin kimyəvi yolla alınması; b) maddələrin onların qarışığından

ayırmaqla alınması. Məsələn, torpaqla çirklənmiş xörək duzundan təmiz maddənin alınmasında yalnız fiziki metodlardan istifadə olunur. Əgər natrium xloridi barium xlorid qarışığından təmizləmək lazım olarsa, onda barium xloridin natrium sulfatla çökdürülməsi şəklində kimyəvi reaksiya aparmaq lazım gəlir.

2. Məhlulların hazırlanması. Bu kimi praktik tapşırığın yerinə yetirilməsində şagirdlərdən təkcə həll olan və həlledici maddələrin miqdarının nəzəri hesablanmasına aid bilik yox, eyni zamanda reaktiv, tərəzi, areometr, qablar və s. ilə işləmək kimi müəyyən bacarıqlar tələb olunur.
3. Maddələrin, ionların, funksional qrupların, qarışıqların və s-nin tanınması və qruplaşdırılması. Bu tip məsələlər şagirdlərdən maddələrin qruplaşdırılmasına aid bilik və bacarıqlar tələb edir.
4. Xüsusi kimyəvi reaksiyaların aparılması. Bu tipdə olan məsələlərin həllində kimyəvi reaksiyaların aparılması, müşahidə, təsvir və kimyəvi hadisənin əlamətlərinin izahı həyata keçirilir. Məsələn, "verilən maddənin ZnO-in amfoterliyini sübut et".
5. Kombinə edilmiş məsələlər. Belə məsələlər bir neçə tapşırığı əhatə edir. Məsələn, verilən maddəni almaq, onu xarakterizə etmək və xarakterik kimyəvi reaksiyalar aparmaq.

Eksperimental məsələlərin bu növlərini nəzərdən keçirdikdə aydın olur ki, elmdə, texnikada və ümumiyyətlə istehsalatda tələb olunan bilik, bacarıq və vərdiş şagirdlərə məhz eksperimental məsələlərin həlli üsullarına məktəblərdə geniş yer verilməlidir. Bütün kimya məsələləri dörd qrupa bölünür

1. Qarşıya qoyuln suallara cavab tələb edən məsələlər
2. Hesablama məsələləri
3. Çalışma məsələləri
4. Eksperimental məsələlər

Yalnız əqli mühakimə yürütməklə həll oluna bilən məsələlərə məsələ-suallar və ya məntiq məsələləri deyilir. Bu tip məsələlərə əsas olaraq heç bir kimyəvi formul və kimyəvi reaksiya tənliyini yazmadan, yalnız mühakimə yürüdərək, məntiqin gücü ilə həll edilən kimya məsələləri daxildir. Məsələ suallar əsas etibarı ilə şagirdlərə verilən suallardan ibarət olur. Lakin bu suallar gündəlik dərslərin sorğusu zamanı verilən suallardan çətinlik baxımından müəyyən qədər fərqlənir. Belə ki, gündəlik dərslərin sorğusunda və ya təkrarındakı sualın cavabını şagird qabaqcadan öyrənmişdir, sorğu zamanı onu yalnız yadına salmalıdır. Məsələ-suallar da isə cavabı şagird məntiqin gücünə əsasən özü fikirləşib tapmalıdır. Çünki istifadə etdiyi dərslikdə və ya digər kitabda onun hazır cavabı verilməmişdir. Bu tip məsələlərin həll edilməsinin şagirdin fikirləşməsi və bu yol ilə də zehni və ya idrak fəaliyyətini inkişaf etdirmək baxımından olduqca böyük əhəmiyyəti vardır. Məsələ-suallara bir neçə nümunə göstərək.

1. Məlumdur ki, suyun molekulu oksigenlə hidrogendən ibarətdir, hava da oksigen mənbəyidir. Onda çəki ilə 23.094, həcm ilə isə 21 faiz oksigen vardır. Burada hansı halda “oksigen” özünü bəsit maddə olaraq düşünmək lazımdır?
2. Oksigen laboratoriyada civə (II)oksidin, bertole duzunun (Kalium xloratın) və kalium – permanqanatın parçalanmasından, sənayedə isə maye havanın fraksiyalı distilləsindən alırlar. Bunların hansı fiziki, hansı isə kimyəvi hadisədi?
3. Bir litr su buxarlandıqda, yoxsa bir litr kerosin yananda daha çox su buxarı alınır?

Göründüyü kimi, bunların həlli yalnız izah tələb edən məsələlərdir. Burada onların yalnız cavabını izah etmək lazım gəlir.

Bəzən məsələ-sualların həlli zamanı şəkil, diaqram, sxem və ya qrafikdən istifadə etmək lazım gəlir. Məsələn, kitabda verilmiş həll olma əyriləri qrafikindən istifadə edərək 70 dərəcə temperaturda 100 qram suda: a) nə qədər natrium nitrat; b) nə qədər kalium – sulfat həll olunduğunu tapın.

Burada şagird heç bir kimyəvi formul və tənlikdən istifadə etmədən və hesablama aparmadan, yalnız verilmiş qrafikə əsasən məsələnin cavabını tapa biləcəkdir. Bu halda o, eyni zamanda qrafikdən istifadə etmək qaydasını da öyrənəcəkdir.

Hesablama məsələlərində adətən məlum kəmiyyətlər olur, sonra verilmiş və ya tapılmış kəmiyyətlərə istinad edərək, məsələdə tələb olunan nəticə hesablanılır. Hesablama məsələlərini xarakterindən asılı olaraq üç qrupa bölünür: a) çalışma (təmrin) məsələləri; b) elmi – tədqiqat xarakterli məsələlər; c) istehsalat – texniki məzmunlu məsələlər.

**a)** Çalışma - hesablama məsələlərinin həlli zamanı qarşıya qoyulan əsas məqsəd məktəbdə keçilmiş dərsi möhkəmlətmək, qeyri-üzvi və üzvi birləşmələrin tərkiblərin şagirdlərin yaxşı öyrənmələrinə kömək etməkdir. Bu məsələlər şagirdləri sırf çalışdırmaq, kimyəvi formulun mahiyyətini başa salmaq, qram – molekul anlayışını dərk etdirmək məqsədi güdür. Məsələn,

1. 2 qram hidrogen ilə 12 qram oksigen qarışığı partladıqda neçə qram su əmələ gəlir.

2. 0,5 qram – molekul oksigen normal şəraitdə nə qədər həcm tutar?

Belə məsələləri həll etmək üçün şagirdin çox uzun düşünməsi lazım gəlmir. Birinci məsələdə şagird yalnız suyun tərkibində hidrogenlə oksigenin çəki nisbətini(1:8) bilərək 12 qram oksigen 1,5 qram hidrogenlə birləşə biləcəyini və beləliklə 13,5 qram su əmələ gələcəyini tapmalıdır. Hidrogenin 0,5 qramı reaksiyada iştirak etməyəcəkdir.

**b)** Elmi – tədqiqat xarakterli məsələlər kimya fənnini şagirdlərin dərindən öyrənmələri onu şüurlu şəkildə başa düşmələri və s. üçün böyük əhəmiyyətə malikdir.Məsələn, Bertole duzunu $KClO_3$ ayırmaqla 0.5 qram – molekul oksigen

alınmışdır.Neçə qram – molekul duz ayrılmışdır. Bu məslənin istehsalat ilə bilavasitə əlaqəsi yoxdur. Lakin, bunu həll edən şagird təcrübədə tapılan bir kəmiyyətə (0.5 qram – molekul oksigenə) əsasən məsələdə tələb olunan, tədqiq olunan maddənin miqdarını hesablamaq yolunu öyrənir.

**c)** İstehsalat – texniki məsələlər dedikdə bilavasitə həyat istehsalat və xalq təsərrüfatının müxtəlif sahələri ilə əlaqədar olan məsələlər nəzərdə tutulur. Bu tip məsələlərin həlli də şagirdlərdə dərindən düşünmək, dərsdə öyrəndiyi qanunları və nəzəriyyələri, onlardan çıxarılan formulları sənayenin müxtəlif sahələrinə düzgün tətbiq edə bilmək bacarığı tələb edir. Söz yox ki, bu tipli məsələlər də şagirdlərin yaş xüsusiyyətinə görə tərtib olunmalıdır. Bu məsələ tipinin elmi – tədqiqat xarakteri daşıyan məsələlərdən fərqi, rəqəmlərin sırf riyazi olmayıb, həyatdan, istehsalatdan götürülməsidir. Eyni zamanda, elmi – tədqiqat məsələlərindən fərqli olaraq, burada maddələr saf halda düşünülməyib onlarda ola bilən qatışıqlar da nəzərə alınır. Bunu misal ilə aydınlaşdıraq.

Sönməmiş əhəng (CaO) əhəng daşını ($CaCO_3$) $850^0$ C qızdırdıqda alınır. Bu zaman sönməmiş əhəngdən başqa karbon qazıda $CO_2$ əmələ gəlir. 10% kənar qatışıqlar olan əhəng daşının 1 tonundan nə qədər sönməmiş əhəng alınar?

Göründüyü kimi bu məsələ də sırf elmi – tədqiqat məsələsindən fərqli olaraq əhəng daşı $CaCO_3$ təbiətdə təsadüf eildiyi şəkildə, yəni saf deyil, qarışıq halda götürülür. Eyni zamanda bilavasitə əhəng istehsalı ilə əlaqədardır.

Məktəbin həyatla əlaqəsini möhkəmlətmək üçün kimya kursunda istehsalat xarakterli məsələlərə geniş yer verilməli və mümkün qədər bütün məsələ tipləri istehsalat xarakterli olmalıdır.

Çalışma məsələləri sırasına elementlərin valentinə görə kimyəvi birləşmələrin formullarını düzəltmək və ya verilmiş formulda elementin valentliyini təyin etmək, tənlik yazmaq və əmsallarını tapmaq, molekul kütlələrini, ekvivalent kütlələrini, qram – atom, qram – molekul və qram – ekvivalenti hesablamaq kimi çalışmalar daxildir.

İstər məsələ suallar, istərsə də çalışma məsləleri həm sinifdə dərs zamanı keçilir, həm evə tapşırıq kimi verilir, həm də sinifdən xaric kütləvi iş şəklində təşkil edilib keçilə bilər.

Eksperimental məsləleri iki qrupa ayırırlar. Birinci qrupa sırf təcrübə ilə əlaqədar olan eksperimental məsələlər, ikinci qrupa isə həm təcrübə edilməsi, həm də hesablama aparılması tələb olunan məsələlər aid edilir. İkinci qrupa aid edilən məsələlər eksperimental – hesablama məsələləri kimi də adlandırırlar.

Sırf təcrübə ilə əlaqədar olan eksperimental məsələlər, əsasən dərsdə keçilmiş materialın möhkəmləndirilməsinə, biliklərin təkmilləşdirilməsinə və yaradıcı tətbiqinə xidmət edir. Eksperimental məsələlərin bu qrupunu yalnız laboratoriya şəraitindı yaxud nümayiş şəklində həll etmək məsləhət bilinir. Buna görədə eksperimental məsələlər adətən dərsdə həll olunur.

Sırf təcrübə ilə əlaqəli eksperimental məsələyə misal olaraq göstərmək olar: Təcrübələrlə sübut edin ki, sınaq şüşələrinin hansında natrium-xlorid, natrium-hidroksid və xlorid turşusu məhlulları vardır. Məsələnin həllinin köməyi ilə şagirdlərin nəzəri biliklərinin səviyyəsini müəyyən etmək olar. Məsələnin həlli zamanı şagirdlər məsələnin şərtini diqqətlə təhlil edir və başa düşürlər ki, verilən maddələri biri-birindən fərqləndirən başlıca əlaməti lakmus indikatorunun təsirini bilmək lazımdır.

Kimya məsələlərinin hər hansı birini həll etdirməyin bir neçə ümumi şərti var. Yalnız sinifdə deyil, şagird evdə də məsələ həll etdikdə ümumi şərtlərə riayət etməlidir. Kimyadan hesablama məsələlərin həllində üç əsas cəhət nəzərə alınmalıdır.

- Məsələnin yazılış qaydası.
- Məsələnin həlli üçün hazırlıq, yəni qabaqcadan aydınlaşdırılması mühüm ola cəhətin meydana çıxarılması, məsələdə çatışmayan və ya açıq surətdə meydana çıxarılması, məsələnin həlli üçün lazım olan formul və tənliklərin yazılması.
- Məsələnin riyazi həll edilməsi. İstifadə ediləcək formul və tənliyin axtarılan kəmiyyətə görə cəbri həll edilməsi, məlum qiymətlərin formulda yerinə qoyulması və hesablanın cavabın tapılması.

Eksperimental məsələ həlli mərhələlərlə aparılır.

1. Nəzəri həlli. Əvvəlcə məsələnin şərti bütün siniflə araşdırılır, keyfiyyət reaksiyaları seçilərək təklif olunan təcrübə ilə cavabı alınan suallar formalaşdırılır. Şagirdlərdən biri məsələnin nəzəri həllini lövhədə həll edir və eksperimentlə öz fərziyyəsinin düzgünlüyünü təsdiq edir. Sinfin digər şagirdləri iş yerlərində oxşar tapşırığı yerinə yetirərək, alınan nəticələri cədvəldə qeyd edirlər.

2. Məsələnin praktik həlli. Seçilmiş reaksiyaların təyin olunmuş qaydada aparılmasından ibarətdir. Təcrübələri aparan zaman şagirdlərin bir sıra qaydalara riayət etməsi vacibdir. İlk növbədə quru maddələr suda həll edilməlidir. İkinci əmələ gələn məhlulların rənginə və qoxusuna diqqət etməli, çünki bir çox maddələr məhlulda onları fərqləndirən spesifik rəng və qoxuya malik olurlar. Üçüncü təcrübəni yerinə yetirmək üçün götürülmüş məhluldan eyni nömrə ilə nömrələnmiş boş təmiz sınaq şüşəsinə 1 ml-dən artıq olmayaraq məhlul tökülməlidi. Sonda alınmış nəticələr cədvəldə qeyd olunur.

Hər bir kimya məsələsi həm adi yazı vasitəsilə heablama məsələsi kimi, həm də eksperimental şəkildə həll edilə bilər. Məsələ yazı vasitəsilə hesablandıqda məsələnin həlli nəzəri cəhətdən düzgün tapılmasından ibarət olur. Məsələni eksperimental (praktiki) həll etdikdə isə şagirdlərdə bir sıra əlavə iş görmək: düzgün təcrübə qoymaq, alınmış maddının məhlulda və ya çöküntüdə olduğunu təyin etmək, onu süzmək, kristallaşdırmaq və sairə vasitə ilə ayırmaq və çəkmək kimi bacarıqlar tələb olunur.

Məktəbdə şagirdlərə eksperiment məsələri verib həll etdirmək üçün az miqdarda sınaq şüşələri, rezin və şüşə borular, tıxac və digər avadanlıqlar, həmçinin təxminən yüzə yaxın hər birinindən cüzi miqdarda reaktiv lazımdır.

Kimyadan eksperimental məsələlərin həlli keyfiyyət reaksiyaları nəzərdən keçirilən dərslərdə öyrənməlidir. Müəllim əvvəlcə bir məsələnin həllini göstərir digərini isə şagirdlərə müstəqil olaraq həll etməyi təklif edir. Bunu həm nümayiş, həm də laboratoriya təcrübəsi kimi aparmaq olar. Kimya müəllimi eksperimental məsələləri şagirdlərin bilik səviyyələrinə uyğun seçməli, onlara məsələ həllinin ümumi şərtlərini və üsullarını geniş öyrətməlidir.

Məsələlərin eksperimental üsul ilə həlli şagird biliyinin nə dərəcədə şüurlu, konkret və sistematik olduğunu təyin etmək üçün mühüm vasitədir.

## İstifadə edilmiş ədəbiyyat:

1. Abbasov M.M., Əliyev A.H. Kimyanın tədrisində müasir təlim texnologiyaları. Bakı: Kimya məktəbdə,
2. R.Y.Əliyev "Kimya tədrisi üsulunun ümumi məsələləri". Bakı, 1987.
3. R.Y.Əliyev, Ə.T.Əzizov "Kimyanın tədrisi metodikası", Bakı, ADPU,2006, 293 səh.
4. N.L.Qlimka "Ümumi kimyadan məsələ və çalışmalar" Bakı, "Maarif" , 1965, 259 səh.
5. Г.М.Чернобельская. «Методика обучения химии в средней щколе » М., «Просвещения» 2000, 230 стр.
6. Н.Е.Кузнецова и другие. «Методика преподавания химии» М., «Просвещения» 1984, 415 стр.

*М.Г.Шахбазов, Н.А.Мамедзаде*

**Способ решений экспериментальных задач по химии в 7-8 классах общеобразовательных средних школ**

**РЕЗЮМЕ**

Цель статьи разяснить школьникам экспериментальные задачи и их решения по химии, укрепить знания, способности и навыки учеников по химии, оказать помощь для глубокого и сознательного усвоения решений задач по каждой теме.

*M.H.Shahbazov, N.A.Mammedzade*

**The solution method of experimental tasks for 7-8 th grades in secondary schools**

**SUMMARY**

The main purpose of this article is to explain students in experimental issues in chemistry for secondary classes and their ways of solutions, to intensify students skills and knowledge in chemistry and to help to master the lesson deeply and consciously for each topic.

**Açar sözlər:** kontrol iş, eksperimental məsələlər, demonstrasiya.

**Ключевые слова:** контрольная работа, экспериментальные задачи, демонстрация.

**Key words:** control work, experimental issues, demonstration.